# Təhsil.TV-nin ADNSU haqqında çəkdiyi sənədli filmin təqdimatı olub





Martın 10-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Təhsil.TV-nin "Ali hədəflər" layihəsi çərçivəsində universitet haqqında çəkdiyi filmin təqdimatı keçirilib. Filmdə ADNSU-nun tarixindən, vaxtilə universitetdə təhsil almış görkəmli şəxsiyyətlərdən, həmçinin universitetin bugünkü həyatından, tələbələrdən, beynəlxalq əlaqələrindən, laboratoriya və tədris prosesindən bəhs olunub.

Filmin nümayişindən sonra ADNSU-nun rektoru, professor Mustafa Babanlı film haqqında təəssüratlarını bölüşüb və yaradıcı heyətə gözəl iş ərsəyə gətirdikləri üçün dərin təşəkkürünü ifadə edib. "ADNSU-nun şanlı tarixi var və bunu bu cür, olduğu kimi əks etdirmək böyük peşəkarlıq tələb edir. Azİİni sevmədən bu cür film çəkmək olmazdı. Buna görə də yaradıcı heyətə dərin minnətdarlığımı bildirirəm", - deyə rektor M.Babanlı bildirib.

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov Azİİnin hər zaman seçilən universitet olduğunu vurğulayıb. Yalnız şanlı tarixi və parlaq gələcəyi olan belə bir ali məktəbin savadlı və peşəkar mütəxəssislər yetişdirə biləcəyini qeyd edən C.Valehov ADNSU-nun eyni zamanda gələcəyin universiteti olduğunu bildirib. Onun sözlərinə görə, təhsil, elm və innovasiyanı vəhdət şəkildə nəzərdən keçirən ADNSU-nu 3-cü nəsil universitet adlandırmaq olar.

Tədbirin sonunda Təhsil.TV-nin yaradıcı heyəti - layihənin rəhbəri Nurəddin Heydərov, əməkdaşlar Arzu Qulamov, Vahid Quliyev və Gülnarə İlham səhnəyə dəvət olunub, onlara təşəkkürnamə təqdim edilib.

Qeyd edək ki, "Ali hədəflər" layihəsi Təhsil Nazirliyi və Təhsil.TV-nin layihəsi olub, ölkədəki ali təhsil müəssisələrinin tarixi keçmişi və hazırki fəaliyyətini əks etdirən filmlərin çəkilməsini nəzərdə tutur.